

OQTAY İSMAYILLI

# DÖRDLÜKLƏR

***

Qatdıq siyasətlə ədəbiyyatı,
Söz ilə vuruşub, hərbi uduzduq.
Millətlər içində ən müflisiyik:
Şimalı, Cənubu, Qərbi uduzduq!

***

Çıxıb sıxıntıdan bu saat, bu gün
Dağ kimi ayağa durmaq gərəkdir.
Birinci gülləni zəfər çalmaqçün
Xainin başına vurmaq gərəkdir.

***

Çıraqban dünyaya baxıb demə ki,
Mən ömür sürürəm işıq içində.
Sönsə inamının alov qanadı,
Zülmətə düşərsən işıq içində.

***

İnamın övladı deyilsənsə sən,
Bənzərsən quruca nəfəsə, səsə.
Heç bircə addım da ata bilməzsən,
İnamın özündən öndə getməsə.

***

Mənim bağım, bağçam yoxdur,
Bitmişdim ki, bitirəm də?!
Heç vaxt ziyan çəkməmişəm,
Tapmışdım ki, itirəm də?!

***

Haqqı heç görmədim ayaq üstündə,
Kimin ona gücü çatıbsa, yıxıb.
Nə yaman tünlükdür əyri yollarda,
Məgər yolun düzü qəhətə çıxıb?

***

Axır vaxtlar tanımıram dünyanı,
Qara ağa, ağ qaraya boyanıb.
Qiyamətmi başlanıbdır, ay Allah,
Ayaq başda, baş ayaqda dayanıb!

***

Qarğışa, lənətə heç yatmır dilim,
Yoxdur bəd sözlərə meylim bir gilə.
Hazıram namərdi alqışlamağa,
Tez durub getsəydi Əzrayıl ilə.

***

Məndən ayrı deyil, mənə yad deyil,
Olanım-olmazım, baxtımdır bu daş.
Bu palıdın dibi şah sarayımdır,
Qara cəvahirdən taxtımdır bu daş.

***

Özünü ideal sayana bir bax,
İnsanlıq haqqında anlayışı yox.
El başçısı olub elə bir axmaq,
Heç ev saxlamağa layiq başı yox.

***

Dərdi, qəmi əzib toz eləyirsən,
Hər tozu göyərib təzə dərd olur.
Dibçək çiçəyinə bənzəyir sevinc,
Bircə gün gözünü çəkirsən, solur.

***

Fikrim daim mənə çiçəklərinin
Şirəsini çəkən ac bir arıdır.
Kağızlar beynimin bir parçasıdır,
Qələm ürəyimin şah damarıdır.

***

Hanı elə bir ağsaqqal,
Bizə pir olsun, pir olsun?
İki adam hardan tapaq,
Sözü bir olsun, bir olsun?

***

Şair ömrü sözə bağlı,
Ömrə dəyən söz desənə.
Sözə ömür vermirsənsə,
Ömür verməz söz də sənə.

***

Biz dünyaya gəlmişikmi
Özümüzü qəmə tutaq?
Dərdimizə yanan yoxdur,
Üzümüzü kimə tutaq?

***

Dünya məni neyləyirdi? -
Burda mənə yer yox imiş.
Xeyir olan xeyir tapmır,
Şər olana şər yox imiş.

***
Görəsən, insanlığı,
Ya məni ölmüş sayır? -
Kimlərinsə ruhları
Başım üstdə ağlayır.
***
Ya daşnakı əzməliyik
Ayaqların altındaca,
Ya biz şəhid olmalıyıq
Bayraqların altındaca.
***
Hansı sözdə yanmıramsa,
O söz mənim azarımdır.
Hansı şeirim diri deyil,
Kol-kos basmış məzarımdır.
***
Çırpınırsan cəsədimdə,
Ruhum, hara can atırsan?
Gözün qalıb göy üzündə,
Nursan, nura can atırsan.
***
Yaradan Tanrıdırsa,
Qıran insandır niyə?
Mələk üzlü adamın
İçi virandır niyə?
***
Hər şübhəyə yüz illərlə
Yüz cür cavab aranıbdır.
Hər tapılan cavaba da
Yüz cür şübhə yaranıbdır.
***
Kimin kimdən xəbəri var?!
Çoxu məni xoşbəxt sanır.
Ocaq kimi gendən xoşam,
İçimdə bir dünya yanır.
***
Ümidimi bağlamışam
Ancaq adil Allahıma.
Mənim könlüm yetimdirmi,
Hər yetəndən şəfqət uma?!
***
Hünər deyil, adi işdir
Qorumaq öz şərəfini.
Kişi olan tutar daim
Xalqın, haqqın tərəfini.
***
Dustağammı, azadammı?
Heç bilmirəm, nəçiyəm mən.
Arzum böyük, işim xırda,
Özümdən çox kiçiyəm mən.
***
Barışmıram bu gerçəklə,
Xəyallarla yaşayıram.
Yerdə gülə əlim çatmır,
Göydən ulduz daşıyıram.
***
Səmanı sel yuyub gedir,
Şimşək çırpır, göy sökülür.
Yerdən alıb içdiyi su
Göyün gözündən tökülür.
***
Dağın başı göyə yaxın,
Ətəyində niyə durum?!
Mənimdir o uca məqam,
Halalıma yiyə durum!
***
Eh, yağışın bu səhraya
Nə xeyri var, qum udursa?!
Yüz su içsəm, göyərmərəm,
Zaman məni qurudursa.
***
Xəyalımı işıq yuyur,
Ürəyimi tikan didir.
Canım Yerin həmyerlisi,
Ruhum səma sakinidir.
***
Allah, həyat acıdır,
Bu zəhərə bal qat, ver.
İflicdir gerçək aləm,
Xəyalıma qanad ver.
***
Ölən kimi nəyim varsa,
Sahib çıxıb alacaq kam.
Varisimdir hər şeyimə,
Mən dünyanın atasıyam.
***
Beş manata almaq olar,
İman yaman ucuzlaşıb.
Bir gülləlik qiyməti var.
İnsan yaman ucuzlaşıb.
***
Dirilib çıxdım ölümdən,
Ölüb həyatdan qurtardım.
Bundan ona, ondan buna
Keçib boyatdan qurtardım.
***
Gör nə qədər boğulubdur
Bədbəxt vicdanın səsi:
Qatilə bəraət verir
Bu əsrin məhkəməsi.
***
Hər tərəfdən əl uzanır
Bu yumşaq, xamır könlümə.
Dərdlərim də yaralıdır,
Qanları damır könlümə.
***
Belə necə yaşayasan
Altmış-yetmiş yaşa kimi?
Ölür bütün ümidimiz
Əldə altı qoşa kimi.
***
Belə günah olmaz, Allah,
Sözü də yaltaq etdilər.
Yoluxdurub min məkr ilə,
Şeytana ortaq etdilər.
***
Salonlar boğulur tüstü iyindən,
Saf, büllur kəlmələr hislənir indi.
Çox vaxt layiqsizə deyildiyindən
Təriflər töhmət tək səslənir indi.
***
Bir cücü növüsən, itibdirsə ar,
Çirkabsan, özünü təmiz bilsən də.
Yaltaq, baş əyəndə papağı çıxar,
Papaq əyilməsin, sən əyilsən də.
***
Sabahlar dünənin təməli üstdə
Tikilir ya saray, ya daxma kimi.
Məndən qabaqdadır keçmiş həmişə,
Gedir qurmaq üçün gələcəyimi.

***
Zorun fırtınası heç olmur aram,
İndi girdablarda millətlər batır.
Hər səhər ümidlə oyanır adam,
Hər axşam ümidi dəfn edib, yatır.
***
Sən axirəti də gör bu dünyada,
Onlar həm ayrıdır, həm də bir yerdə.
Əvvəldən artıqdır Şər bu dünyada,
Onuntək artıqdır, bəlkə, Xeyir də.
***
Dünyada ən ağır, ümidsiz xəstə
Beynəlxalq hüquqdur, beynəlxalq hüquq.
Bu adla güclülər verirlər ancaq
Kimə nahaq hüquq, kimə haqq hüquq.
***
Allah bircə ölü yaratmayıbdır,
Tozdan Günəşədək nə varsa, candır.
Bu quru xəzəl də, bu quru ot da
Mənimtək sevgiylə yaradılandır.
***
Su olub, dibinə hoparam, inan,
Mən bir söz gülünü bitirənədək.
Ürəyim bir doğum əzabı çəkir
Şeiri dünyaya gətirənədək.
***
Hər yer verilibdir layiqsizlərə,
Layiqli olanın heç yeri yoxdur.
Eləsi qoyulub dağın başına,
Təpəni çıxmağa təpəri yoxdur.
***
Göyərə-göyərə quruyur həyat,
Qəbristan altında qəbristan yatır.
Diristan çaxnaşır yerin üstündə,
Bağrında daş kimi səbristan yatır.
***
Yaxşı ki, ağlamır səma insana,
Onda dərdimizə biganəlik var.
Bir damla yaş töksə hər ölən üçün,
Yer leysan içində boğulub qalar.
***
Keçsin günahımdan adil Allahım,
Könlümdə ondan da umu-küsü var.
Doğru yalqız qalıb haqq savaşında,
Yalanın bir aləm döyüşçüsü var.
***
Özümü cəzaya məhkum elədim:
Süfrəmdə halala qarışdı haram.
Allahım böyükdür, məni bağışlar,
Mən isə kiçiyəm, bağışlamaram.
***
Cığırlar fırladıb qaytarır bizi,
Burdan ulduzlara bir yol uzana.
Yerdə ki tapmırıq öz yerimizi,
Hərə çıxıb gedə öz ulduzuna.
***
Dünyanın dağları məndən cavandır,
Buludtək keçmişəm mən Everestdən.
Cənnətin özündə kəpənək kimi
Uçmuşam Adəmin başının üstdən.
***
Ya hər biri təmiz qızıldan imiş,
Günlər saçlarımı qapıb getdilər,
Ya da hərəsindən bir nəfs asıldı,
Tüklərim başımdan qopub getdilər.

***
Əlimdən tutmadı, tuta bilməzdi,
Bəxtin də əlsizi, qolsuzu varmış.
Gəzdirib gör necə azdırdı məni,
Yollar içində də yolsuzu varmış.
***
Ürək gənclikdədir, can qocalıqda,
Pətəyi talanmış bir arıyam mən.
Məni iki zaman ikiyə bölüb,
Keçmişlə bu günün şikarıyam mən.
***
Dərdi daş sayanlar səhv eləyirlər,
Bu qədər dərdim var, bir daşım yoxdur.
Var ata malına şərik qardaşım,
Dərd malına şərik qardaşım yoxdur.
***
Allahım, bir şirin umacağım var:
Yeri əbədilik məskənim edəm.
Cənnətdən gözəldir Azərbaycanım,
Axı niyə ölüb cənnətə gedəm?
***
Sən məni görürsən bir can içində,
Gerçəkdə nur kimi hər yerdəyəm mən.
Sonsuzdan sonsuzam cahan içində,
Burda dayansam da, səfərdəyəm mən.
***
Dəli var, özüylə oynayır ancaq,
Dəli var, bıçaqla, odla, ocaqla.
Dəli var, əlində ölkə oyuncaq,
Millət, bacar onu zəncirdə saxla.
***
Kimlər ki ittiham olunmalıdır,
Hakim olmalını ittiham edir.
Vaxtdır, ulu qisas alınmalıdır,
Amandır, həqiqət ölümə gedir.
***
Gülə-gülə dəf et uğursuzluğu,
Durma hər bəlanın pərt qabağında.
Hər dərdi dərd etmə özünə, qardaş,
Dərd var, kef kimidir dərd qabağında.
***
Dünya məclisində tapmadım aram,
Hamı cüt olsa da, ruhum tək imiş.
Sözüm bu zamanda eşidilmədi,
Mənim həmsöhbətim gələcək imiş.
***
Alçaqlar ucanı çəkir dərinə,
Bu mərddən o mərdə heç haray yoxdur.
Necə söykənsinlər biri-birinə:
Dağlar arasında dərələr çoxdur.
***
Hər il bir düzəliş, hər il bir yamaq,
Canı başdan-başa yaradır, yara.
Mənə bir qanunu bütöv göstərin:
Ayağı haradır, bəs başı hara?
***
Dərdlər bir-birindən ucaboyludur,
Zaman da onlara olub sadiq yar.
Məxluqun bir azı İblissoyludur,
Dönüb yesirinə mələksoylular.
***
Dərdlər bir-birindən ucaboyludur,
Zaman da onlara olub sadiq yar.
Məxluqun bir azı İblissoyludur,
Dönüb yesirinə mələksoylular.

***

Zaman - kasıbları bişirən təndir,
Ehtiyac evlərdə, kədər qapıda.
Pulla pul-pul olub tökülür zəncir,
Pulsuz qırmaq olmur çürük sapı da.

***

Önə diqqətlə bax addım atmamış,
Bu yerin quyusu, dərəsi çoxdur.
Bilmək olmaz harda kim vurar səni,
Bu qanlı ovlağın bərəsi çoxdur.

***

Qanunu zor yıxsa, pul əyib-bursa,
Onu yazanların əli qırılsın!
Yalnız tərif demək qorxusuzdursa,
Belə azadlığın beli qırılsın!

***

Məndən kənar deyil bu sonsuz aləm,
Aşkar da, qeyb də sözlərimdədir.
Nəyi hiss edirəm, duyğularımda,
Nəyi görürəmsə, gözlərimdədir.

***

Allahın bir adı həqiqətdirsə,
Necə həqiqətsiz yaşayır dünya?
Tükü də tərpənmir milyon şər işdən,
Əcəb ədalətsiz yaşayır dünya.

***

Ya bu dağ poladdır, ya külüngüm küt,
Bisütun qismətim heç cür çapılmır.
Ölən ümidlərim o qədərdir ki,
Dəfn üçün sinəmdə ta yer tapılmır.

***

Məmur kabineti sərdabə imiş,
Qanunlar, insanlıq çürüyür orda.
Üçüncü soyuqluq qütbüdür sanki,
Şaxtası milləti bürüyür orda.

***

Əyri əməlləri düz göstərməkçün
Nə qədər düz sözə öyrətdik kələk.
Onunçün sevirik "haqq" sözünü ki,
Nahaqı o adla yaşada bilək.

***

Hər yerdə həmişə sevilmək üçün
Həqiqət zəqqum yox, bal olsun gərək.
Hakim lap qoruyar ədaləti də,
Amma bir şərti var: lal olsun gərək.

***

Ümidlə gözləmək nahaqdır, qardaş,
Bizdən gedənlərin gəlişi yoxdur.
Ədalət dünyaya niyə qayıtsın?! -
Burda ki bir tanış-bilişi yoxdur.

***

Bir kölgəm var idi gündüz,
Axşam onu da itirdim.
Əvvəlim əldən çıxmışdı,
İndi sonu da itirdim.

***

Vücudumtək libası var,
Canan cahan donsuz deyil.
Məkan mənəm kainata,
Sonsuz məndən sonsuz deyil.

***

Bərəkət gözə görünsə,
Dünya bircə dəni tutmaz.
Ruhum boyda olsa canım,
Heç kainat məni tutmaz.

***

On səkkiz min aləmin
Tək gülüdür bu cahan,
İnsan nəğməsi deyən
Bülbülüdür bu cahan.

***

Bir günahın ağırlığı
Adəmi saldı səmadan.
Yüz günahın yüz qat yerə
Batıracaq səni, nadan.

***

Sual birdir bilənədək,
Bildin, neçə qalmaqal var.
Hər cavabın hamilədir,
Yeddi əkiz sual doğar.

***

Əli olmaqdan bezmişəm,
Vəli olmaq istəyirəm.
Ağıl məni girinc edib,
Dəli olmaq istəyirəm.

***

Bərəkət gözə görünsə,
Dünya bircə dəni tutmaz.
Ruhum boyda olsa canım,
Heç kainat məni tutmaz.

***

Uçub ədalətin qədim sarayı,
Əzilir bəxtimiz daşların altda.
Yastığa dönmüşük səbir etdikcə
Bizə kinlə dolu başların altda.

***

İstədiyi kimi yoğurur, yapır,
Fələyin əlində diri kündəyik.
Axı bu dünyada cəhənnəm yoxdur,
Bəs niyə bir belə od içindəyik?

***

Xar bürüyüb bağı tamam,
"Bar" sözünü unutdurub.
Yoxluq elə bollaşıbdır,
"Var" sözünü unutdurub.

***

Yerə düşmək istəyirəm,
Yarı göydən asılmışam.
Göyə qalxmaq istəyirəm,
Yarı yerə qısılmışam.

***

Görünən hər nə varsa,
Sığınıb gözlərimə.
Közlərim kainatın
Beşiyidir, sən demə.

***

Yoxam daim yoxluqlarda,
Varam bütün varlıqda həm.
Məzarımı qazana bax,
Anlamır ki, mən ölməzəm.

***

İlahinin bənzəriyəm,
Haqdan gəlir istedadım.
Allah mənə bir şans verib,
Gərək yoxdan var yaradım.